Yanvar 2016

# PwC Azerbaijan Times

## 1 saylı Buraxılış

**Buraxılışın əsas xəbərləri:**

- **"Valyuta tənzimi haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklərin edilməsi haqqında Qanun layihəsi**



Burada əks olunan məlumatlarla bağlı hər hansı bir sual yaranarsa, Marketing və Kommunikasiya məsələləri üzrə Menecer Aysel Süleymanova ilə əlaqə saxlaya bilərsiniz.


aysel.suleymanova@az.pwc.com

**PwC Azərbaycan**

Landmark Ofis Plaza III, 12-ci mərtəbə
90A Nizami küçəsi
Bakı AZ1010, Azərbaycan

Tel: +994 12 497 2515
Faks: +994 12 497 7411

www.pwc.com/az



© 2016 PwC. Bu xəbərdə əks olunan informasiya yalnız ümumi məlumat xarakteri daşıyır və hərtərəfli hüquqi analiz təşkil etmir. Məlumatların dəqiqliyinə və tamlığına dair heç bir zəmanət verilmir. Hər hansı bir nəticəyə gəlib onu tətbiq etməzdən (və ya etməməzdən) əvvəl oxucular öz spesifik məsələləri üzrə mütəxəssislərin məsləhətini almalıdırlar. Oxucuların bu xəbərlərdəki məlumata əsaslanıb hər hansı bir nəticəyə gəlib onu tətbiq etmələrinə və ya hər hansı vacib məqamı nəzərdən qaçırmalarına görə biz heç bir məsuliyyət daşımırıq.


### *"Valyuta tənzimi haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklərin edilməsi haqqında Qanun layihəsi*

19 yanvar 2016-cı il tarixində Milli Məclis öz rəsmi internet səhifəsində "Valyuta tənzimi haqqında" mövcud Qanununa bir sıra dəyişikliklərin edilməsi barədə qanun layihəsini dərc etdirmişdir.

Qanun layihəsinə əsasən rezident və qeyri-rezident fiziki və hüquqi şəxslər tərəfindən daşınmaz əmlak, torpaq və qiymətli kağızlar üzərində mülkiyyət hüququnun, habelə Azərbaycan Respublikasından kənarda birbaşa investisiyanın əldə edilməsi məqsədilə Azərbaycan Respublikasından kənara köçürülən xarici valyuta məbləğlərinə 20% miqdarında icbari yığım tətbiq edilməlidir.

Eyni zamanda, Qanun layihəsində göstərilir ki, 20% miqdarında icbari yığım xaricdə müalicə alınması, xarici ölkədə təhsil və xarici ölkələrin məhkəmə və hüquq mühafizə orqanları qərarlarının icrası ilə bağlı ödənişlərə şamil edilmir.

Qanun layihəsində həmçinin qeyd olunur ki, fiziki şəxslərin valideynləri və yaxın qohumlarına təqvim ili ərzində 50,000 ABŞ dolları ekvivalentindən yuxarı məbləğdə köçürülən vəsaitlərə də icbari yığım tətbiq edilməlidir. Bu halda icbari yığım köçürülən vəsaitin 50 000 ABŞ dollarından yuxarı olan hissəsinə şamil edilir.

Bundan əlavə, rezident hüquqi şəxslərin Azərbaycan Respublikasından kənarda yerləşən filial və nümayəndəliklərinə təqvim ili ərzində 50 000 ABŞ dolları ekvivalentindən (və ya həmin məbləğin hər hansı digər valyutadakı ekvivalentindən) yuxarı məbləğdə köçürmələrinə də 20% miqdarında icbari yığım (50,000 ABŞ dollarından yuxarı məbləğə) tətbiq edilməlidir.

Hazırda Qanun layihəsində bir çox anlaşılmaz və aydın olmayan məqamlar mövcuddur (məsələn; 20% icbari yığımın toplanmasına hansı orqan nəzarət edəcək, onu vergi qanunvericiliyi ilə necə üzləşdirəcək, qanun pozuntusuna görə hansı cərimələr tətbiq oluacaq, təklif edilən Qanunun müddəaları banklar, sığorta şirkətləri və investisiya fondlarına, eləcə də bir çox digər müəssisələrə necə tətbiq ediləcək). Biz bu məsələni daim nəzarətdə saxlayır və təklif edilən bu Qanunun sahibkarlara potensial təsirini anlamaq üçün müvafiq dövlət orqanları ilə müzakirələr aparırırq. Yuxarıda qeyd olunan məsələnin təfərrüatları barədə dərhal Sizə məlumat verəcəyik.